# "Monoton yaşamağı sevmirəm"

## Alim Qasımov sadə insan həyatı yaşadığını düşünür



**Bütün dünyası musiqiylə dolan Azərbaycanın fəxri Alim Qasımovla, xoşbəxtlikdən, yenə görüşdük. Zöhr namazının vaxtı idi. Alim Qasımovun köməkçisi muğam ustadının namaz qılacağını, sonra müsahibə verəcəyini dedi. Alim Qasımov çox sadə insandır. Bunu hələ bunu onunla ilk müsahibəmdə anlamışdım. Yenidən onu görməyə sevinirdim. Möhtəşəm ifalarıyla tanınan muğam ustası sadəliyi və mehribanlığı ilə də milyonların rəğbətini qazanacaq biridir.**

**Namazdan sonra müsahibəyə dəvət etdi. Alim Qasımovun sadəliyi ilə yanaşı, daxilində olan zəngin, mürəkkəb dünyanın olduğunu və çox çətinliklə açıldığını hiss etdim. Onun necə biri olduğunu əslində hamı dərk edə bilməz. Bəzi ifadələri var ki, insanın həyatını da dəyişdirər. Onun milyonları əhatəsinə və təsirinə almaq gücünə malik daxili enerjisi ifasına təzahür edib insanlara təsir etdiyi kimi, davranışlarında da sezilirdi.**

**- Yayı necə keçirdiniz?**

- Yayı hamı kimi, ailəylə birgə, tək və dostlarla keçirtdim. Mən ümumiyyətlə, monoton yaşamağı sevmirəm. Həm işimdə, həm yaşamağımda fərqlilik özünü göstərir. Ümumilikdə çox rəngarəng həyat keçirirəm.

İnsan istirahət vaxtı adət etdiyi yerlərdən, adət etdiklərindən çox vaxt uzaqlaşmaq istəyir. Amma ailəylə, sevdiyin insanlarla bir yerdə olanda istirahət daha yaddaqalan, daha halal, daha ürəyəyatımlı olur. Azərbaycanda olduqca ailəylə burada istirahət edirik. 19 gün Naxçıvanda, bir neçə gün Təbrizdə və Almaniyada qaldıq. Naxçıvanın öz marağı oldu. Çox qonaqpərvərdirlər, bizi qonaq apardılar, görmədiyim yerləri göstərdilər. O qədər qonaqpərvərdirlər ki, məni o qədər yerə aparmaq istəyirdilər ki, artıq qaçıb gizlənirdim. Çox gözəl dostlarım var. İldə bir dəfə ora getməliyəm. Yaxşı havası var. Orada müalicə üçün Duz Dağına da getmişdim. Həm ticarət oldu, həm ziyarət.

**- Ailəyə yetərincə vaxt ayırırsınızmı? Konsertlərə, səfərlərə başınız qarışdığı müddətdə diqqətdən kənar qalanda şikayətlənirlərmi?**

- Yox, şikayət etmirlər. Artıq özləri başa düşürlər. 40 ildir ki, bu sistemlə yaşamağa öyrəşiblər. Tədbirin tədbir yeri, ailənin də ailə yeri var.

**- Müğənnilərimiz getdikcə qalmaqallara daha çox yer verir və bunu ictimailəşdirirlər. Buna münasibətiniz necədir?**

- Qalmaqal hər bir sahədə var. Sadəcə olaraq musiqiçilər həmişə xalqın diqqət mərkəzində olduğuna görə qalmaqalları da üzdə olur. Olmalıdır da. Həyatdır. Nə qədər insan yaşayır, qalmaqal da var, yaxşı da var, pis də var.

### "XASİYYƏTDİR DƏ..."

**- Məhz qalmaqalla yadda qalmalarına necə baxırsınız?**

- Dedi-qoduyla? Xasiyyətdir də. Hərənin bir xasiyyəti var. Yaşayış tərzi var. Onların yerinə danışa bilmərəm ki... Adam var, dedi-qoduyla, kiminsə dalınca danışmaqla öz enerjisini xərcləyir. Mən elə deyiləm. Dəyməyim sənə, dəymə mənə. Sakit. İmkan daxilində onları özümdən uzaqlaşdırıram.

**- Saytlarda, televiziyalarda müğənnilərin, sənət adamlarının yaradıcılığından çox, şəxsi həyatları ilə bağlı xırdalıqların, qalmaqalların verilməsinə necə baxırsınız?**

- İnsanlar öz aralarında bir-birilə vuruşurlar, onu qoyduq bir kənara. Amma televiziya, radio və saytlara dost kimi nəsihətim odur ki, qalmaqalları çox qabartmasınlar. Çalışsınlar, insanı düz yola gətirmək haqqında verilişlər, çıxışlar olsun. İnsana xeyir verən söhbətlər daha çox olsun. Qalmaqal onsuz da hər birimizin həyatında var. Bunu qabardıb gündəmə gətirməyin nə mənası var? Camaata mənəvi dəyərlərin zənginliyinə yönəlmiş məlumatlar verilməlidir. Gələcək nəsil necə olmalıdır? Onu göstərmək lazımdır, nəinki bunları. Təqsir izləyici və oxucularda deyil, göstərən və təbliğ edənlərdədir.

**- Bu gün dəbdə olan müğənnilərdən kim yadda qalacaq? Kim tarixə düşəcək?**

- Yadda qalmaq, tarixə düşmək insanın əlində deyil. Allaha şükür ki, insanların əlində deyil. İstəyirsən, bu dünyada bütün medalları, adları yığ evinə, amma bunu tarix qəbul eləmirsə, deməli, yoxdur. Mən deməklə, o deməklə, tarix olmur. Kimin adı tarixə düşəcək, necə düşəcək, onu zaman göstərəcək.

*Söhbətin bu hissəsində Alim Qasımov qəlyanı çıxardıb çəkməyə başladı. Saytlarda onun fotolarını çox vaxt məhz belə görmək olur. Qəlyanı çəkir və dərin fikrə gedir. Anlamaq olmur, o, pərişandır, yoxsa adət etdiyi üçün çəkir.*

**- Alim müəllim, qəlyana çoxmu önəm verirsiniz? Ziyanlı deyilmi? Sizə deyən olubmu ki, çəkməyin?**

- Bunu çəkmək olmaz. Qəlyan zərərlidir. Mən uşaqlıqdan vərdiş eləmişəm. Hərdən də ara boş olanda yandırıram.

**- Neçə yaşınızdan çəkirsiniz?**

- Çəkəndə heç yaşımı bilmirdim. Çox kiçik idim yəni. Buna görə bizi uşaqlıqda az qala öldürürdülər. Ağzımıza duz tökürdülər, ovxalayırdılar ki, çəkməyək.

### "BİR ÜRƏK MƏNİM BƏDƏNİMİ İŞLƏDİR, BİR ÜRƏK DƏ..."

**- Qayıdaq musiqiyə, o, həyatınızda necə bir yer tutur?**

- Musiqi həm tərbiyəm, həm xalq arasında hörmətim, həm sənətim, həm də mənim ikinci ürəyimdir. Bir ürək mənim bədənimi işlədir, bir ürək də bütün həyatımı əhatə edir. O da musiqidir. Bunu mənə kimsə deməyib. Bu, Allahın məni yönəltdiyi bir yoldur.

Muğam sonsuzdur. Baxır kim nə qədər bu musiqi okeanında üzür, kim nə qədər dərinə gedir? Səhərdən axşama qədər, axşamdan səhərə qədər bütün vaxtını alır. Çünki bu, yaradıcılıq işidir. Musiqi həm mənim işimdir, həm hobbimdir.

**- Pərəstişkarlarınız sizinlə əlaqə qurmağa çalışırlarmı?**

- Bu müsahibədən öncə Rusiyadan bir adam gəlmişdi. Dedi ki, qardaşım qəza keçirib, beyni pozulub, ancaq sənin ifanla yaşayır. Biri Tehrandan gəlib, cavan oğlandır. Deyir ki, icazə ver, heç olmasa ayda bir dəfə gəlib sizinlə görüşüm. Xarici ölkələrdən də mənimlə əlaqə quran pərəstişkarlarım olur.

Pərəstişkarlarım ürək sözlərini gəlib deyəndə qürur hissi keçirirəm. Daxili bir enerji yüksəlişi keçiririk. Allaha şükür ki, səhv öyrənməmişik, səhv yolda deyilik, muğamı düz ifa etmişik ki, indi də nəticəsini görürük. İnsan istər-istəməz daxili bir kef eləyir də.

**- Bu gün gənclər hansı musiqiyə meyil edirlər?**

- Dünya durduqca yüngül musiqi dəbdə olub. Çünki bugünkü həyat tərzində işlənilən sözlər yüngül musiqidə işlənərək populyar olur. Məsələn, mahnılara gənclər həmişə "Ay qız, gəl! Mən zəng eləyirəm, sən harada qalmısan?" tipli sözləri olan mahnılara meyil edirlər. Muğam isə düşündürücü musiqidir. Ona səbir lazımdır. Gərək oturasan, qulaq asasan.

**- Son zamanlar xarici musiqilərin şərq musiqisi ilə sintezi daha da artıb. Bu nə ilə bağlıdır?**

- Şərqin həm yaşayışında, həm mənəviyyatında, həm də musiqisində istilik çoxdur, nəinki Avropa musiqisində. Şərq musiqisi, şərq həyatı çox istidir. Bütün dünya, Avropa, xaçpərəstlər bizim hər şeyimizə yiyələniblər. Bizim həyatımızı yaşayırlar. Biz də istəyirik ki, onlara özümüzü göstərək və onlar kimi yaşayaq. Çox qəribədir.

**- Yaradıcılığınızda nə kimi yenilikləri planlaşdırırsınız?**

- Qarşıda səfərlərimiz var. Səfərlərdən sonra ola bilsin ki, Azərbaycanda konsert verəcəyik. Əvvəlcə Almaniyada olacağıq. Sentyabrın 9-u Osnabrükdə kaman ifaçısı Rauf İslamov, pianoçu Salman Qəmbərov, Mişel Qodarla 50 dəqiqəlik konsert proqramı ilə çıxış edəcəyik. 15-i Amsterdamda konsert verəcəyik. Amsterdamdan Rauf İslamovla Amerikaya yola düşəcəyik. Burada 11 konsert gözlənilir. Amerikanın bir neçə ştatında konsert və 4-5 master-klass olacaq. Konsertin özəlliyi "Leyli və Məcnun"un ifası zamanı bizi Mark Morrisin rəqs ansamblının müşayiət etməyi olacaq.

**- Din həyatınızda çox önəmlidir.**

- Allaha ibadətim gündəlik yaşayışımdır. Hər gün Allah rizası ilə 5 dəfə namaz qılıram. Demək olar, bizim evdə hamı vaxtıvaxtında namazını qılır, orucunu tutur. Allah hamıya qismət eləsin.

**- Necə oldu ki, ibadətə başladınız?**

- İbadətə ona görə başladım ki, gördüm, Allah mənə kömək edir, yar olur, içimdə olan niyyətləri həyata keçirir. Allaha üzümü tutub dedim ki, "Allah, mən namaza başlayacağam".

Bir şamaxılı dostum vardı. Ona dedim ki, məni sübh namazı üçün yuxudan oyat. Sübh namazını qılanda gördüm ki, artıq həyat yoldaşım da bizim arxamızdadır. Biz namazın sözlərini də tam bilmirdik. Elə o vaxtdan namaz qılırıq.

**- Gözəl ailəniz, övladlarınız var. Hansı övladınızı daha çox sevirsiniz?**

- Hamısını sevirəm. İki qızım və bir oğlum var. İki övladımı da körpəlikdə torpağa tapşırmışam. Bir qız və bir oğlumu. Yeddi nəvəm var. Nəvələrim arasında mənimlə həmsöhbət olanı da var. Amma çox maraqlıdır, övladlarım da, nəvələrim də ayrı-ayrı adamlardırlar. Üç övlad - hərəsi bir adamdır. Fərqli insanlardır. Nəvələrim də hərəsi bir aləmdir. Elə bil yad adamlarla söhbət edirsən. Hərəsinin öz fikri, hərəsinin öz istəyi.

**- Balacalar adətən sevinc bəxş edir, güldürürlər.**

- Nəvələrimin hamısı məni güldürürlər. Nəvələrimdən ən gülməlisi Fatimə olub. Çünki o, birinci gəlib. Fərqanənin böyük qızıdır. Sonra balaca qızımın qızı ilə xeyli əylənceli vaxtlar keçirtmişik. Oğlumun oğlunun adını Alim qoyublar. İndi onunla oynayırıq. Onların hər hərəkəti adama ləzzət edir. Onlardan gələn bir aura, enerji var ki, onu heç yerdə görməmişəm. Hiss edirəm ki, nəvələrimin hamısı məni eyni dərəcədə sevir. Onların heç birində Leyli-Məcnun məhəbbəti hələ ki, görmürəm.

**- Sizcə, nəvələrinizdən kim müğənni ola bilər?**

- İstəsələr, nəvələrimin hamısı müğənni ola bilər. Fərqanənin uşaqları, oğlumun oğlu Alimdə musiqiyə yatımlılıq daha çoxdur. Aralarında bunu çox istəyən olsa, ona kömək edəcəyəm. Elə-belə yarımçıq olsa, onları bu yoldan uzaqlaşdıracağam. Bu istedad irsi keçir.

**- Sizə kimdən keçib?**

- Anamdan da, dədəmdən də keçib. Dədəmin yaxşı səsi olub, anam da çox istedadlı olub. Qeyri-adi olublar. Amma anam evdar qadın olub, dədəm də adi fəhlə, çoban. Bu işlə məşğul olmayıblar. İstedadlarını mən bu sahədə olandan sonra anladım.

### "MƏN DƏ DEMİŞƏM Kİ, MƏN HARA, MÜĞƏNNİLİK HARA?"

**- Müğənni olmaq istəyən gənclərə nə məsləhət görərdiniz?**

- Mən onlara deyirəm ki, kim müğənni olmaq istəyirsə, müğənni olmasın. Əksinə, onların yanındakılar onların müğənni olmağını istəyirlərsə, onda müğənni olsunlar. Onların özlərinin istəməsi düzgün deyil. Mənə həmişə kənardan deyiblər ki, bu sənətin dalınca get. Mən də demişəm ki, mən hara, müğənnilik hara?

**- Sizi bütün dünyada sevirlər. Böyük sevgi qarşısında insan özünü necə hiss edir?**

- Məsuliyyətdir. Sevgini qazanmaq çox çətindir, onu saxlamaq da böyük məsuliyyətdir. Canlı həyat bizim üçün bir imtahandır, əziyyətdir, zülmdür, Ona görə bu zülmə qarşı ədalətli, imanlı-dinli, Allahın sevgisini qazanıb gedək. Həyatda hər şey zülmdür, yaxşısı da, pisi də...

**- Bütün insanlar həyatda çətin məqamlarla rastlaşırlar. Siz belə məqamlarda nə edirsiniz?**

- Problemləri həll etmirəm. Allah özü kömək olur. Mənə həyatda rəhmliliyim, insafım kömək edib.

**- Siz məşhur müğənni həyatı yaşayırsınızmı? Ulduz xəstəliyiniz olubmu?**

- Sənəti kənara qoysaq, mən adilərdən də adi, kəndçilərdən də kəndçiyəm, çobandan da çobanam. Mən elə adamam, elə də yaşayıram. Sənətimə uyğun yaşamıram. Əksinə, sənətim ayrı yerdədir, mən ayrı. Məni xalq sevib, qiymətləndirib.

**Aynurə Məmmədova**
**Milli.Az**